***"Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi tariximizə qızıl hərflərlə yazılıb. Qarşımızda duran əsas vəzifə işğaldan azad olunmuş torpaqlarımızın bərpası, quruculuq işlərinin həyata keçirilməsidir. Cənab Prezident müharibədən sonra azad olunmuş ərazilərə şəxsən səfərlər edir, həmin torpaqlardan qarşıda duran vəzifələrlə bağlı öz mesajlarını verir. Bu baxımdan, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuli və Xocavənd rayonlarına, Şuşa şəhərinə səfəri böyük əhəmiyyət kəsb edir"... Bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini Sevinc Fətəliyeva deyib.***

# Qalib sərkərdə Şuşada

S. Fətəliyeva bildirib ki, Prezident İlham Əliyev həmin bölgələrə müzəffər ordunun və dövlətin qalib sərkərdəsi kimi səfər etdi. Onun sözlərinə görə, səfər zamanı bir sıra infrastruktur layihələrinin, quruculuq işlərinin təməli atıldı, Ali Baş Komandan tərəfindən Hadrut qəsəbəsində dövlət bayrağımız ucaldıldı: "Məlumdur ki, 30 ilə yaxın müddət ərzində bu torpaqları işğal altında saxlayan düşmən dövlət siyasəti dərəcəsinə çatdırılan terror hərəkətləri törədib, həmin ərazilərdə daşı daş üstə qoymayıb, evləri, infrastrukturu dağıdıb, yeraltı və yerüstü sərvətləri talan edib.

Bir sözlə, bir vaxtlar həyat qaynayan rayonlarda dədə-baba torpaqlarından qovulan azərbaycanlıların ev-eşikləri erməni vandalları tərəfindən yerlə-yeksan olunub. Bəli, bu, erməni xislətinin mahiyyətini, vandallığını, vəhşiliyini göstərir. Amma ermənilərdən fərqli olaraq ordumuz mülki insanları qətlə yetirməyib, yaşayış məntəqələrini dağıtmayıb, humanizm prinsipləri ilə yanaşıb. Hadrut qəsəbəsinin timsalında da bunu görmək olar. Bu, bizim bir xalq olaraq mənəvi keyfiyyətlərimizin göstəricisidir.

Azərbaycan Ordusundan fərqli olaraq, Ermənistan tərəfi isə azərbaycanlı mülki əhalini hərbi hədəf kimi seçiblər. Biz bu qanlı cinayətlərə 1992-ci ildə Qaradağlıda, Xocalıda, Ağdabanda, Ballıqayada, 1993-cü ildə Başlıbeldə, 2020-ci ildə isə Gəncədə, Bərdədə, Tərtərdə və digər ərazilərdə şahid olmuşuq. Azyaşlı uşaqları, qadınları, qocaları qətlə yetirmək təcavüzkar Ermənistan üçün əsas məqsədlərdən biri olub".

Sevinc xanım qeyd edib ki, müharibə dövründə Ermənistan hakimiyyəti öz xalqını da aldatmaqla məşğul olub. Belə ki, Azərbaycan öz torpaqlarını azad etsə də, erməni tərəfi bunu inkar edirdi, öz əhalisinə, guya, üstünlüyün onlarda olduğunu bildirirdi. Bunu Hadrut qəsəbəsi ilə bağlı da demək olar. Amma erməni yalanları tezliklə ifşa olundu.

Prezidentin Şuşaya növbəti səfəri də əlamətdar oldu. Belə ki, bu səfərin xalqımızın milli bayramı olan Novruz ərəfəsində, İlaxır çərşənbədə səfər etməsinin böyük əhəmiyyəti var. Artıq bundan sonra arzuladığımız kimi, Novruz bayramını Şuşada qeyd edəcəyik. Eyni zamanda, səfər zamanı dövlətimizin başçısı Şuşada bərpa-quruculuq işləri ilə tanış oldu. Bütün bunlar onu deməyə



əsas verir ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın xüsusi diqqəti nəticəsində Şuşa şəhəri tezliklə dirçələcək, o cümlədən, tarixi, mədəni və dini abidələrimiz bərpa olunacaq.

"Vətən müharibəsi dövründə biz xalq olaraq çox güclü həmrəylik nümayiş etdirdik. Siyasi baxışlarından, mövqeyindən və əqidəsindən asılı olmayaraq, hər kəs bir amal uğrunda birləşmişdi. Təbii ki, biz buna Prezidentimizin həyata keçirdiyi islahatlar nəticəsində nail olduq. Genişmiqyaslı islahatların tərkib hissəsi kimi demokratik, siyasi islahatlar ölkəmizdə həmrəyliyimizin və birliyimizin güclənməsində mühüm rol oynadı. Bundan sonrakı mərhələdə isə cənab Prezidentin tövsiyəsinə uyğun olaraq, qələbəmizi siyasi yollarla möhkəmləndirmək, erməni faşizmini və vandalizmini ifşa etmək üçün beynəlxalq müstəvidə fəaliyyətimizi gücləndirməliyik. Eyni zamanda, Prezidentin Hadrut qəsəbəsində dediyi kimi, biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq. Bütün dağılmış şəhərləri, kəndləri yenidən quracağıq, həyat qayıdacaq, insanlar qayıdacaq və biz bütün dünyaya bir daha xalqımızın böyüklüyünü göstərəcəyik", – deyə S.Fətəliyeva vurğulayıb.

***Hazırladı:***
***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***